*Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı qəbulda Azərbaycanın xarici siyasəti, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan–Türkiyə qardaşlığı və sair aktual mövzular barədə çox mühüm fikir və mülahizələr səsləndirib.*



# Azərbaycan Prezidentinin Yunanıstan səfirinin qəbulu zamanı söylədiyi fikirlər Türkiyə KİV-nin diqqət mərkəzindədir

***Azərbaycan Prezidenti deyib:*** "Sizə deyə bilərəm və bu sirr deyil ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük".

Bu sözlər, bütövlükdə dövlətimizin başçısının parlaq nitqi Türkiyənin bir çox aparıcı KİV-ində dərin razılıq hissilə qarşılanıb. Türkiyənin aparıcı informasiya agentliyi olan "Anadolu" qeyd edib ki, Yunanıstan səfirini qəbul edən Prezident İlham Əliyev olduqca açıq, Azərbaycanın milli maraqlarına əsaslanan fikirlər səsləndirmişdir. İxtisasca diplomat olan, dünyanın ən nüfuzlu ali məktəblərindən birində 5 il diplomat yetişdirən, diplomatik qaydaları yüksək səviyyədə bilən və daim bu qaydalara riayət edən Prezident İlham Əliyev Yunanıstanın səfiri ilə açıq danışaraq bir daha nümayiş etdirdi ki, Azərbaycanın milli maraqları ən vacib məsələdir, burada qapalı və qaranlıq heç bir məqam ola bilməz.

Azərbaycan Prezidenti Şərqi Aralıq dənizi mövzusunda da Türkiyənin mövqeyini qəti şəkildə dəstəkləmişdir. "Anadolu" müxbiri qeyd edir ki, cənab İlham Əliyev qəbulda Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginliyə toxunaraq demişdir: "Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı".

Türkiyədə ingilis dilində nəşr olunan "The Daily Sabah newspaper" qəzeti qeyd edir ki, Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət məsələləri, ölkəsinin milli maraqları və Yunanıstanla əlaqələr kontekstində növbəti dəfə rəsmi Bakının qətiyyətli mövqeyini ifadə etmiş, əzm və iradə göstərmişdir.

Azərbaycan lideri bildirmişdir ki, Yunanıstan, Kipr və Ermənistanla birlikdə üçlük format yaradaraq Azərbaycana qarşı fəaliyyət göstərirlər. Bundan başqa, Yunanıstanla Ermənistan arasında hərbi əməkdaşlıq Azərbaycanda ciddi narahatlıq doğurur. Türkiyə mediası vurğulayır ki, Azərbaycan Prezidenti işğalçı Ermənistanın təcavüzkar xislətini ifşa etmişdir: "Ermənistan aqressiv davranır. Dövlət sərhədində son gərginliklər Ermənistanın təxribatıdır, terror aktı törətmək üçün sonuncu cəhd zamanı təmas xəttini keçmək istəyərkən erməni zabiti saxlanılıb və o, artıq etiraf edib ki, onun qrupu bizim hərbçilərimizə və mülki şəxslərə hücum etmək məqsədi güdüb. Bir sözlə, Ermənistan Azərbaycanın düşmənidir və bu, onların qərarı olub".

Qəzet xatırladır ki, Prezident İlham Əliyev 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə o vaxtkı Ermənistan Prezidenti Serj Sarkisyanın Türkiyəyə qarşı hücumlarına sərt cavab verərək bildirmişdi: "Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm".

Türkiyə mətbuatında gedən xəbər, şərh və məqalələrdən qırmızı xətlə keçən fikir budur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dünya diplomatiya tarixinə yazılan açıq, səmimi və milli maraqlara əsaslanan siyasət nümunəsidir.

***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 4 sentyabr.- S.3.